# ŞƏKİ DAYAQ MƏNTƏQƏSİ
## (yemçilik istiqamətli)



**Ünvan: AZ 5500, Şəki rayonu, Çeşməli kəndi,**

**Direktor: Fərəcov Qeysər Əsabəli oğlu**
**Mobil: (+99455) 605-00-70**
**E-mail: *shakiytt.yemchilik@bk.ru***



Şəki Dayaq Məntəqəsi Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinin 30 dekabr 1971-ci il tarixli 843 nömrəli əmrinin icarəsi ilə əlaqədar olaraq 28 fevral 1972-ci il tarixdə Azərbaycan ET Yemçilik, Çəmənçilik və Otlaqlar İnstitutunun struktur tabeliyində yaradılmışdır. Hazırda Şəki Dayaq Məntəqəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 aprel 2015-ci il 109 nömrəli Qərarı ilə Əkinçilik ET İnstitutunun struktur tabeliyndə fəaliyyət göstərir.
Şəki DM-nin təşkilati strukturunda yem bitkilərinin becərilmə texnologiyası və toxumçuluğu şöbəsi fəaliyyət göstərir. Burada 5 nəfər çalışır. Şəki DM-nə təhkim olunmuş ümumi torpaq sahəsi 125 hektardır, ondan 55 hektarı k/t-na və əkinə yaralıdır. Büdcədən maliyyələşən və qismən təsərrüfat hesablı dövlət müəssisəsidir.




**Fəaliyyət istiqamətləri:**

- Əkinçilik ET İnstitutu tərəfindən verilmiş sifariş əsasında nəmliklə qismən təmin olunmuş dəmyə şəraitində elmi-tədqiqat işlərinin yerinə yetirilməsində iştirak etməklə, icrasının təmin edilməsi;
- Rayonlaşmış yem bitki sortlarının toxumçuluğunun təşkil edilməsi;
- Ayrı-ayrı yem bitkilərinin sələf bitkisi olaraq növbəli əkin sistemində öyrənilməsi.





